# KİTABİ-DƏDƏ QORQUD ABİDƏSİNDƏ OĞUZ ELLƏRİNİN ADƏT-ƏNƏNƏLƏRİ VƏ ONLARIN AİLƏ VƏ İCTİMAİ HƏYATDA YERİ VƏ ROLU



*Yusif QAZIYEV,*
*Əməkdar müəllim*

**1.Oğuz elində xeyriyyəçilik, adqoyma və varislik ənənəvi kütləvi səciyyə daşıyırdı.**

Oğuzların bəşəri və nümunəvi adət-ənənələri mövcud idi. Bu adət-ənənələrdən biri də xeyriyyəçilik idi. Oğuzlar çalışırdılar ki, nail olduqları var-dövlət icma daxilində bölüşdürülsün. İmkansızlar da maddi nemətlərə malik olsunlar. Bunun üçün təbliğat lazım gəlmirdi. Bu dövr üçün də mümkün deyildir. Göstəriləcək xeyriyyəçilik praktik olaraq əməli işlərlə yerinə yetirilirdi ki, bunun da gənc nəsil üçün böyük tərbiyəvi əhəmiyyəti olurdu.

Dastanın II boyunda – «Salur Qazanın evi yağmalandığı boyu bəyan edər», 3 ildən bir Qazan yaxın qadınının əlindən tutub evindən çıxırdı. Qonaqlığa dəvət edir, oğuz bəylərinə bütün var-dövlətini yağmalandırırdı (bölüşdürürdü).

Oğuzların hər zaman həyata keçirdikləri «şülən» və «toy» mərasimlərində ziyafət verilirdi. Bu toy məclisləri doğuma, bəy oğlanın ilkin ovuna, əsirlikdən və ya fəlakətdə qurtulmaya, hər hansı bir sevincə həsr edilirdi.

Xeyriyyəçilik Oğuz elində adət şəklini almışdır. Onlar hər hansı mərasim olursa da – toy qabağı, dügün zamanı, döyüşə hazırlıq və döyüşdən sonra, ad günləri, doğum günləri və s. şənliklərdə xeyriyyəçilik edirdilər. «Dirsə xan oğlu Buğac xan boyu»nda xatunu əri Dirsə xana bu məsləhətləri verir ki, Dirsə xan, böyük qonaqlıq düzəlt, İç Oğuzun, Daş Oğuzun bəylərini üstünə yığ, ac görsən doydur, çılpaq görsən geyindir, borclunu borcdan qurtar, şadlıq məclisi qur, Tanrıdan arzunu dilə, bəlkə bir ağzı dualının alqışı ilə Tanrı bizə övlad verə. Dirsə xan xatununun arzusunu yerinə yetirir.

Bir müddətdən sonra bir ağzı dualının alqışı ilə onlrın oğlu dünyaya gəlir.

«Ol zamanda bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcəb olurdı» (D – 68).

Müasir gənclərimizin tərbiyəsində böyük əhəmiyyət kəsb edən müqəddəs adət və ənənələrimizin əksəriyyəti özlərinin ilkin istiqamətlərini və mənbəyini «Kitabi – Dədə Qorqud» dastanından alır. Xadqımızın varlığının əzəmətli kökləri əks olunmuş bu adət və ənənələr el-obaya, ata-anaya, bacı-qardaşa, doğma torpağa məhəbbətin qüdrətli vasitələridir. Bu ənənələrdə azad sevgi, ata-anaya məhəbbət, düşmənə nifrət, doğma torpağa bağlılıq, torpağın azadlığı uğrunda hər cür mübarizəyə hazır olmaq kimi gözəl insani sifətlər öz parlaq ifadəsini tapmışdır. Bu ənənələr gəncləri öz soykökü zəminində kökləyib tərbiyə etməklə onları öz tarixinə, mədəniyyətinə bağlayır, nəsillər arasında əbədi təkrarlanan qanuna uyğunluğun davam etməsinə, zənginləşməsinə şərait yaradır.

Qədim Oğuzlarda adqoyma mərasimləri çox ciddi aparılırdı. Bir çox hallarda uşaqlar adsız böyüyürdü. Onlar müvəqqəti ləqəblərlə çağrılırdı. Uşağın adı onun gələcək hünər və qəhrəmanlıqları ilə müəyyənləşib ad qoyulurdu. Dastanda qeyd edildiyi kimi Dirsə xanın oğlu buğa ilə döyüşür və qalib gəlir. Baybura bəyin oğlu isə kafirlərlə döyüşüb Oğuz tacirlərinin və digər başqa qonşu xalqlardan olan tacirlərin əşyalarını alıb özlərinə qaytarır. Dədə Qorqud bunların birinə Buğac, digərinə isə Beyrək adı qoyur.

Uşaq anadan olduqdan sonra müəyyən ad qoymaq üçün Oğuz uşağı 15 yaşına çatdıqdan sonra müəyyən bir igidlik, şücaət göstərməlidir. Məsələn, dastanda oxuyuruq ki, Dirsə xanın oğlu buğa ilə döyüşür, buğaya qalib gəlir, Dədə Qorqud gəlib dedi:

«Hey Dirsə xan! Oğlana bəglik vergil,
Təxt vergil, - ərdəmlidir!
Boynı uzən bədəvi at vergil,
Binər olsun, hünərlidir».

Bayandır xanın ağ meydanında bu oğlan cəng etmişdir. Bir buğa öldürmüş sənin oğlın, adı Buğac olsun. adını bən verdim, yaşını Allah versün – dedi (D – 17, 18)

- Baybörə bəyin oğlu isə kafirlərlə döyüşüb Oğuz tacirlərinin malını alıb özlərinə qaytarır. Bu qəhrəmanlıqdan sonra Baybörə Qalın Oğuz bəylərini çağırdı, qonaqladı. Dədə Qorqud gəlib Baybörənin oğluna ad qoydu: «Sən oğlım «Bamsan» deyə oxşarsan; bunun adı Boz ayğırlıq Bamsı Beyrək olsun. Adını bən dedim, yaşını Allah versün! – dedi» (D – 75).

Ümumiyyətlə, KDQ boylarından göründüyü kimi, Bayındır xanın nəvəsi. Qazan xanın oğlu Uruz Oğuzlara məxsus hərbi şücaət göstəməyincə, Divanda yer ala bilmir. Oğuzlara məxsus mənəvi dəyərlərə malik igidlər düşmənə qarşı hərbi şücaət göstərdikdən sonra ad alır, Divanda yer alır. Həmçinin Oğuz bəylərinə və ataya məxsus mənəvi-siyasi varisləri cəmiyyət tərəfindən təsdiqlənirdi. Bu münasibətlə dastanda deyildiyi kimi Qazan xan 16 yaşlı və şöhrətə nail olmamış oğluna deyir: «...Sənə qalacaq taxt-tacım sənə verməyələr». – deyü sonımı andım, ağladım oğul! – dedi» (D – 125).

Beləliklə, Oğuz cəmiyyətində varislik ənənəsi Oğuz qəbilə və Oğuz qəbilə İttifaqının zəmanətindən, təsdiqindən keçirdi. Bunu oğuzların hərbi başçısı Qazan xan Oğuz adətindən kənarda oğlu Uruzu varis görə bilmir.

Qeyd edilən adət və ənənələr bu gün də öz müdrükliyi, müqəddəsliyi ilə gənclərin əsl oğuz igidləri kimi böyüməsinə ciddi təsir göstərir.

Dastanda xalqın vətənpərvərliyi, onun xeyriyyəçiliyi, səxavət və humanistliyi zəminində formalaşır. Gənc nəslə tövsiyə edilir ki, arzu və diləklərə çatmaq üçün xeyriyyəçi və humanist olmaq lazımdır. Dastanda deyilir: «Dirsə xan dişi əhlinin sözilə Uru toy elədi, hacət dilədi. Atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəylərin üstünə yığnaq etdi. Ac görsə – toydurdı. Yalın görsə – tonatdı. Borclunu borcundan qurtardı. Dəpə kimi ət yığdı. Göl kibi qımız sağdırdı. Əl götürdülər hacət dilədilər. Bir ağzı dualının alqışı ilə Allah – Təala bir əyal verdi. Xatunu hamilə oldu. Bir neçə müddətdən sonra bir oğlan toğurdu...» (D – 15).

**2. Oğuz elində ən gözəl ənənələrdən biri də valideyn və ağsaqqal sözünün eşidilməsi idi. KDQ dastanın əvvəlindən axırına qədər böyüklərə hörmət, ata-anaya qayğı, ağsaqqal sözünə əməl etmək olmuşdur.**

Xeyriyyəçilik müxtəlif mərasimlərlə əlaqədar olaraq keçirilirdi: niyətlər, alqışlar, yas mərasimləri, igidlik mərasimləri, toy mərasimləri və s.

Xeyriyyəçilik məqsədilə həyata keçirilən mərasimlərdən qeyd etmək olar: Bayındır xanın ildə bir dəfə toy edib Qalın Oğuz bəylərini çağırıb qonaqlaması, Salur Qazanın evinin ildə bir dəfə yağmalanması (bölüşdürülməsi, talan edilməsi), Dirsə xanın övlad üçün xeyriyyə məclisi açması və s.

III boyda – «Qamboranın oğlı Bamsı Beyrək boyını bəyan edir, xanım hey!», oxuyuruq:»

Ol zəmanədə bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcəb olurdı. Biybican bəg dəxi yerindən ulu turdı. Aydır: «Bəklər, mənim dəxi həqqimə bir dua eylən. Allah-Təala mana da bir qız verə», - dedi. Qalın Oğuz bəyləri əl qaldırdılar, dua eylədilər: «Allah-Təala sonra da bir qız versə», dedilər.

Baybican bəy aydır: «Bəglər, Allah-Təala mana bir qız verəcək olursa, siz tanıq olın: mənim qızım Bəybörə bəg oğlına beşikkərtmə yavuqlı olsun!» - dedi.

Bunun üzərinə bir qac zaman keçdi. Allah-Təala Baybörə bəgə bir oğul, Baybican bəgə bir qız verdi. Qalın Oğuz bəgləri bunu eşitdilər, şad olub sevindilər» (D – 69).

Qeyd edilən adət-ənənələr Oğuzların xələflərində də bu gün də davam edir. Bu yaxınlarda bir kişinin arvadı 10 il idi ki, uşaq gətirmirdi. N adlı bu kişi buğa alıb kəsdi, xutorun əhalisi toplaşıb buğanın etini doğrayıb bişirdilər, yeyib-dua etdilər ki, N kişiyə Allah-Təala bir övlad versin. Çox keçmədi, N kişinin qadını dünyaya bir oğlan uşağı gətirdi. Hazırda uşaq Ali məktəbi bitirir. «Doğrudan da elin duası müstəcab olar» - deməşdir atalar.

Oğuz qəbilələri ümumi müqəddəs adətlərə malik idilər. Qəbilə və İttifaq daxilində adətlərin pozulması yolverilməz idi. Təsadüfən belə hallar baş verdikdə, müəyyən şərtlər daxilində bağışlanması mümkün olan (məsələn, Yalıncıq səhvini etiraf edib, bağışlanması diləyəndə – III boy) bağışlanardı. Mütləq cəzalanmalı olan: qan intiqamı, Beyrəyin öldürülməsinə cavabdeh olduğu kimi adətlər mövcud idi.

3. Oğuz elində nişan (adaxlı) qoymaq mərasimi. KDQ-də bu adətə yavuklu da deyilir. Əsasən, «Qambörənin oğlı Bamsı Beyrək boyu»nda yuxarıda deyildiyi kimi daha çox xatırlanır.

KDQ-də adaxlı (nişanlı) həm də sədaqət rəmzidir. Banıçiçək Beyrəyi on altı il gözləyir. Nişan mərasimi isə sınaqdan (yarış, güləş, at çapma, oxatma) sonra keçirilir. Nişan üzüyünü oğlanın özü taxır. Təkbətək yarışda qələbə çalan Beyrək «Ortamızda bu nişan olsun, xan qızı!» - deyir (D – 80).

Yeri gəlmişkən, Beyrək əsirlikdən qayıtdıqdan sonra Banuçiçəyə bu üzüyün nişanəsini bildirir və qız onu tanıyır.

Oğuz elində toy mərasimlərinin keçirilməsində əsas problem gələcək gəlinin müəyyənləşdirilməsi idi, yəni kimin qızını almaq, qızı kimin oğluna vermək məsələsi ön plana çəkilirdi. Bu işdə cavanlar cəhd edirdilər ki, adlı-sanlı, vəzifəli şəxslərin qızları ilə evlənsinlər, onların sayəsində Oğuz İttifaqında müəyyən vəzifələr tutsunlar. Burada qız verib, qız almaq problemi, həm də müsahibə qızın axtarılması idi. Bu adət bu gün Oğuzların xələflərində davam edir.

Dastandan məlumdur ki, Daş Oğuzun başında Aruz Qoca dayanır. O. bəylərbəyinin dayısıdır. Bu da ondan irəli gəlir ki, Daş Oğuzun bacıları İç Oğuzun ana qohumluğu ilə sıx əlaqədardır. Həm də iki Oğuz arasında qohumluq aşağı rütbəli şəxslər arasında daha geniş yayılmışdır. Əmən Daş Oğuzdandır, amma o, İç Oğuzda vəzir olan Qazılıq Qocanın qaynıdır. Qazanın etibarlı adamı kimi tanınan Bamsı Beyrək Daş Oğuzdan arvad almışdır.

Oğuzda hər iki tərəfin qız alıb, qız vermək dəbləri mövcud olduğuna baxmayaraq, İç Oğuz Daş Oğuzdan gəlin gətirir. Ancaq dastanda bunun təsirini görmürük. Buradan belə fikir yürütmək olar ki, qız verən tərəf – Daş Oğuz tərəf qadın nəslinin gələcəyi ilə ciddi maraqlanırdılar. Məsələn, Bükdüz Əmən bacısını ona görə Qazlıq Qocaya vermişdir ki, bu nəsildən törəyən oğul xanlar xanı vəzirinin tituluna yaraşan güzəştlər almalıdır. Onun bacısı oğlu Yegnək Bayındır xanın məclislərində xanın qolundakı şərəfli yeri tutur.

Bununla yanaşı oğlu Qanturalı üçün qız axtaran Qazlıq Qoca Qalın Oğuzda (İç Oğuz və Daş Oğuz dastanda birlikdə Qalın Oğuz adı daşıyır) oğluna qız bəyəndirə bilmir. Dastandan məlumdur o, igidlik göstərərək kafir qızı – (Trabzon Təkürünün qızı Sarıdonlu Selcan xatunı alır. Ancaq bu halı xoş amal kimi qarşılamaq olmur. Çünki Selcan xanimın törəmələrinin gələcəkdə kim olacağına – müsəlmanmı? kafirmi? – heç kəs qarantıya verə bilməz.

Mənim, (bu sətrlərin müəllifi) bir çox «beynəlmiləl» ailələrin həyat şəraiti və onların uşaqlarının necə olması barədə canlı məlumatlarım var. Məsələn, ikinci Çeçen müharibəsi dövründə (1999-cu il) VII sinifdə dərsim var idi. Sinfə daxil olarkən balaca küy-səs var idi, şagirdlər həyəcanlı idilər. Mən sinfi sakitləşdirdim və səs-küyün baş verməsəbəbini soruşanda, uşaqlar dedi ki, müəllim Ruslan deyir ki, o Çeçenlərin məğlubiyyətini istəyir. Mən Ruslandan soruşdum ki, sən nə demisən? O dedi ki, bunlar deyir nə ola idi ki, Çeçenlər qalib gələ idi. Mən dedim ki, rusların qələbə çalmasını istəyirəm, onda bunlar mənim üzərimə hücuma keçdilər, istədilər məni döysünlər, o anda Siz gəldiniz, bu yaxınlarda Rusiyaya köçüb gedəcəyik, anamin şəhərinə. Ruslanın anası rus millətindən idi.

Digər bir epizod: atasının anası erməni olan bir azərbaycanlı uşağı Xutor qəsəbəsində qonşu uşaqları ilə oynayarkən, qonşu uşaqları onu oyundan çıxarırlar, onda bu uşaq azərbaycanlı nənəsinə gəlib kövrəlib deyir ki, onu oyundan çıxardılar, ermənilər gələndə mən onlardan qisasımı alacam. Hadisə 1993-cü ildə baş vermişdir. Bunu mənə həmin uşağın azərbaycanlı nənəsi söylədi və giley etdi ki, bu uşaq mənim qızımın uşağıdır. Bu uşağın atasının anası ermənidir, qızımı buraxıb, hazırda Moskvada rus alıb yaşayır. Mən məcburən uşağa himayədarlıq edirəm, ancaq uşaq 2 arxa dəyişsə də yenə erməni xislətini özündə saxlayır.

Başqa bir epizod: Xalq şairi Bəxtiyar Vahabzadənin oğlu İsfəndiyar Vahabzadə Cenevrədə Azərbaycanın təmsilçisi idi. O bu vəzifədən Milli Məclisdə açıq-aşkar imtina etdi ki. Metis uşaqları diplomatik korpusa soxulublar. Azərbaycanın haqq səsini müdafiə etmək istəmirlər, ona görə o bu vəzifədən imtina edəcəyini bildirmişdir.

*(Davamı var)*